Heydər Əliyev-90

# Təntənəli yığıncaq

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə rayon təhsil işçilərinin toplantısı keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndərin abidəsini ziyarət etmiş və abidə önünə gül dəstələri qoymuşlar.

Sonra isə iştirakçılar mədəniyyət mərkəzinin foyesində ulu öndərin 90 illiyinə həsr olunmuş əl işləri və rəsm əsərlərindən ibarət sərgi ilə tanış olmuşlar.

Tədbiri RTŞ-nin müdiri Oqtay Hacıyev açmışdır.

Azərbaycanın Dövlət Himni səslənmişdir.

Təhsil şöbəsinin müdiri qeyd etmişdir ki, bu günlər respublikamızın hər yerində xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubiley şənlikləri təntənə ilə qeyd olunur. Belə tədbirlərin keçirilməsini hər kəs, hər birimiz özünün mənəvi borcu hesab edir, ulu öndərə dərin ehtiramını, sonsuz məhəbbətini bildirir.

Heydər Əliyev doğma Azərbaycanımızın gələcəyi, onun inkişafı və tərəqqisi naminə elə fundamental, elə möhtəşəm işlər görmüşdür ki, nəticədə o, tarixi şəxsiyyət səviyyəsinə yüksəlmişdir və onun siyasəti nəticəsində bu gün doğma Azərbaycanımızın adı inkişaf etmiş ölkələrin adı ilə birgə çəkilir.

Türk dünyasının ən qüdrətli, ən prinsipial, ən qətiyyətli şəxsiyyətlərindən biri olan Heydər Əliyev bütün sahələrə olduğu kimi təhsil sahəsinə də böyük diqqət və qayğı ilə yanaşırdı.

"Təhsil millətin gələcəyidir" deyən ulu öndər fəaliyyəti dövründə təhsil sahəsinə böyük əhəmiyyət vermiş, bu sahədə çalışanların əməyinin ən şərəfli əmək olmasını öz çıxışlarında dəfələrlə qeyd etmişdir. O deyirdi ki, "Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".

Hər bir xalqın mənəvi dəyərlərini onun bilik səviyyəsi müəyyən edir. Biliyə nail olmaq üçün təhsil daim mövcud olmalı və məqsədyönlü şəkildə, ardıcıl surətdə inkişaf etməlidir. Bu ideyalar bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, son 10 ildə məktəblərimizin maddi-texniki bazası xeyli möhkəmlənmiş, infrastrukturu yeniləşmiş və onların informasiya-kommunikasiya texnologiyaları ilə təminatı sahəsində nəhəng işlər görülmüşdür. İstər ölkəmizdə, istərsə də rayonumuzda son illər təhsil sahəsində əldə edilən uğurlar, qazanılan yüksək nəticələr, nailiyyətlər bunu sübut edir.

"Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda məruzə ilə çıxış edən Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi Mədinə Qasımova vurğulamışdır ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibəti ilə keçirilən silsilə tədbirlərdən birinə yığışmışıq. XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyevin elm və təhsil sahəsində apardığı islahatlar gələcək uğurlarımız üçün geniş zəmin yaratmışdır. Böyük rəhbər bütün həyatı boyu istər əməli, istərsə də şəxsi nümunəsi ilə sübut etmişdir ki, elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeşi və himayədarıdır.

Azərbaycanın son 40 ilə yaxın inkişafı tarixində əldə olunan uğurlar onun azərbaycançılıq məfkurəsinə əsaslanaraq həyata keçirdiyi siyasi kursun nəticəsidir. Heydər Əliyevin respublikada rəhbərlikdə olduğu 1969-1982-ci illərdə Azərbaycan hökumətinin diqqət mərkəzində duran ümdə vəzifələrdən biri elmin və təhsilin inkişafına diqqət və qayğının artırılması olmuşdur.

1969-cu ildə respublika rəhbəri təyin olunan Heydər Əliyev öz fəaliyyətinə ilk növbədə sağlam milli kadrların yetişdirilməsi perspektivini məqsəd kimi qarşıya qoydu. Bu məqsədlə SSRİ-nin dünya səviyyəli təhsil ocaqlarına azərbaycanlı gənclərin göndərilməsi tədricən kütləvi hal aldı. 1969-cu ildə 50 nəfərə qədər gənc yüksək təhsilə yiyələnmək üçün ölkədən kənara göndərildiyi halda, bu göstərici 1970-ci ildə 60, 1975-ci ildə 600, 1978-ci ildə isə 900 nəfər idi. Beləliklə, 1969-82-ci illərdə 15 mindən çox Azərbaycan övladı SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil aldı. 1969-cu il avqust plenumunda Heydər Əliyev tərəfindən təhsildə irəli sürülmüş iki əsas prinsip: milliləşmə konsepsiyası və yüksək profesionalizim aparılan məqsədyönlü siyasətin ana xəttini təşkil edirdi.



1970-80-ci illərdə Azərbaycanda 300 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verildi. Tədricən səkkizillik təhsildən onillik təhsilə keçid üçün zəmin yaradıldı. 1972-ci ildə "Ümumi icbari orta təhsilə keçidin başa çatdırılması haqqında" xüsusi qərar qəbul edildi. Bu qərarda orta məktəblər şəbəkəsinin genişləndirilməsi, yüksək ixtisaslı müəllimlərin sayının artırılması, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, gənclərin orta təhsilə tam əhatə olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi, məktəb binalarının tikilməsi və təmiri öz əksini tapmışdı.

Heydər Əliyev Moskvaya rəhbər vəzifəyə irəli çəkiləndə artıq Azərbaycan zəngin intellektual potensiala malik ölkəyə çevrilmişdi. Heydər Əliyev mərkəzdə də təhsil problemlərini daim diqqət mərkəzində saxlayırdı. 1984-cü ildə SSRİ Ali Sovetinin sessiyasında Dövlət islahat komissiyasının sədri kimi "Ümumtəhsil və texniki peşə məktəbi islahatının əsas istiqaməti haqqında" böyük məruzə ilə çıxış edən ulu öndər təlim-tərbiyə prosesinin əsasında şəxsiyyətin formalaşması kimi mühüm bir amilin durduğunu xüsusi qeyd edirdi.



XX əsrin 80-cı illərinin sonlarından Sovet imperiyasının tənəzzülə uğraması ilə təhsil sistemində başlanan tənəzzül 90-cı illərin əvvəllərində daha da dərinləşdi. 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı bütün sahələrdə olduğu kimi təhsil sahəsində də tənəzzülün qarşısını aldı.

"Təhsil dövlətin təməl daşı, millətin gələcəyidir", "Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir", "Mən dünyada müəllimdən yüksək ad tanımıram", yüzlərlə bu cür ifadələr Heydər Əliyevə məxsusdur. Təhsilə, elmə bu cür münasibət Heydər Əliyev siyasətinin aparıcı istiqaməti, onun daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü olub, xalqını, millətini sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq nümunəsidir.

1998-ci ilin 30 mart tarixində ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzalamaqla təhsil islahatı sahəsində yeni tarixi mərhələnin əsasını qoydu. Bu sərəncamda təhsilin inkişafı, maddi-texniki bazasının gücləndirilməsi üçün Dünya Bankının vəsait qoyuluşunun təmin edilməsi və s. məsələlər öz əksini tapırdı. 1999-cu il 15 iyunda təsdiq edilən bu islahat proqramında demokratikləşdirmə, humanistləşdirmə, fərdiləşdirmə və inteqrasiya prinsiplərinə əsaslanaraq yeni milli zəmində təhsil sisteminin yaradılması nəzərdə tutulurdu.

Çox keçmədi islahat proqramının həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdi, yeni proqram və dərsliklər hazırlandı.

Ulu öndərimizin siyasi kursu bu gün də uğurla davam etdirilir. Bu uğurlu siyasi xətti layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev də təhsil sahəsini daim diqqət mərkəzində saxlayır. Belə ki, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, latın qrafikası ilə kütləvi nəşrlər, uşaqların yaradıcılıq potensiyalının inkişafı üzrə dövlət proqramı, 2007-2015-ci illərdə gənclərin xaricdə təhsili ilə bağlı proqram, "Ən yaxşı müəllim və ən yaxşı məktəb"lərin mükafatlandırılması və s. kimi tədbirləri buna misal göstərmək olar.

Həyat və tarix təhsilin inkişafında ulu öndərimizin tutduğu yolun düzgün olduğunu sübut edir. Bu, biz təhsil işçilərinin qarşısında mühim vəzifələr qoyur. Təhsil sahəsində Heydər Əliyevin gördüyü tədbirlər, imzaladığı fərman və sərəncamlar, verdiyi tövsiyə və göstərişləri layiqincə qiymətləndirmək və gerçəkləşdirmək bizim bu yolda strateji xəttimiz, ali məqsədimiz, müqəddəs amalımız olmalıdır.

Məruzə ətrafında çıxışlarda rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, RTŞ-nin metodisti Təranə Səlimova, Zirink kənd ümumi orta məktəbin biologiya müəllimi Sərxan Həşimov, şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi Vüsalə Namətova təhsil sahəsində ulu öndərin misilsiz xidmətlərini qeyd etdilər.

Məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Sonda Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibəti ilə respublika səviyyəli yarışlar, müsabiqələr və olimpiadalarda fəal iştirak etmiş, qalib gəlmiş bir qrup müəllim və şagird rayon təhsil şöbəsi tərəfindən mükafatlandırılmışdır. Qaliblərə mükafatları Qəbələ Rayon İcra Hakimiyyətini başçısı Səbuhi Abdullayev və təhsil şöbəsinin müdiri Oqtay Hacıyev təqdim etmişlər.

Təltiflər başa çatdıqdan sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxış keçirildi.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**